Sərgi salonlarında

**Masallı Dövlət Rəsm Qalereyasında Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə "Müxtəlifliyə qucaq açaq" adlı səyyar rəsm və foto sərgisi açılıb. Prezident İlham Əliyevin sərəncamı ilə bu il ölkəmizdə elan edilmiş "Konstitusiya və Suverenlik İli"nə həsr olunan layihənin məqsədi Azərbaycandakı etnik müxtəlifliyi və multikulturalizm dəyərlərinə sadiqliyi nümayiş etdirmək, etnik qruplar arasında dialoqu təşviq etmək və cəmiyyətdə tolerantlığı gücləndirməkdir.**



# Rənglərin müxtəliflik çağırışı

Sərginin adı müxtəlif etnik qrupların və mədəniyyətlərin vətəni olan Azərbaycanda birgəyaşayış və harmoniyanı, həmçinin bu müxtəlifliyin dəyərləndirilməsini və qorunmasını simvolizə edir.

Açılış mərasimində mədəniyyət nazirinin müavini Murad Hüseynov, Masallı Rayon İcra Hakimiyyətinin başçısı Araz Əhmədov, mədəniyyət və ictimaiyyət nümayəndələri iştirak ediblər. Əvvəlcə Heydər Əliyev parkındakı sərgidə Azərbaycanın mədəni müxtəlifliyini əks etdirən, müxtəlif xalqların dilində yazılmış və onların folkloruna, tarixinə işıq tutan kitablarla tanışlıq olub. Ardınca Onbirillik Uşaq İncəsənət Məktəbində azsaylı xalqların folklor kollektivlərinin ifasında konsert proqramı təqdim olunub. Orada Xalq artisti Murad Hüseynovun rəhbərliyi ilə ustad dərsləri də keçirilib.

Daha sonra tədbir iştirakçıları Masallı Dövlət Rəsm Qalereyasında Azərbaycan Dövlət Rəsm Qalereyasının fondunda yer alan rəngkarlıq və qrafika əsərləri, eləcə də Azərbaycan Fotoqraflar Birliyinin kolleksiyasına aid fotolarından ibarət yer aldığı sərgiyə baxış keçiriblər.

Aprelin sonunadək davam edəcək layihə çərçivəsində, həmçinin "Genetik kod ağacı" adlı interaktiv sərgi də təşkil olunacaq. Sərgi iştirakçıları ağac təsviri olan kətan üzərinə barmaq izləri ilə yarpaqlar çəkəcəklər. Ağacın kökləri irsimizi, budaqları isə gələcəyimizi ehtiva edir.

Bundan əlavə, sərgi çərçivəsində "Əks-səda" adlı instalyasiya da nümayiş etdiriləcək. Güzgülərdən ibarət instalyasiyada neon boyalarla müxtəlif xalqların dillərində yazılar nümayiş olunacaq. Güzgü izləyicinin özünü multikultural Azərbaycanın bir hissəsi olduğunu, şəffaf dairə mədəni müxtəlifliyin açıq və sərhədsizliyini, neon boya ilə yazılmış yazılar isə fərqli dillərin və mədəniyyətlərin real və möhkəm bağlarla bir yerdə cəmləşməsini nümayiş etdirir.

***Ə.ƏLİYEV***
***XQ***